

## NİCAT AĞAYEV

### MƏN VƏTƏNƏM

Mən Vətənəm -
Adım bəlli, söyüm bəlli, köküm bəlli.
Tarix boyu savaşaraq,
Verdiyim hər hökm bəlli...

Mən Vətənəm -
Kimlər bizə tələ qursa,
Oyununu pozacağam.
Bir gün gedib Göyçə göldə
Qırmağımı atacam -
Göyçənin qızıl balığın
Bişirəcəm Ərdəbildə...

Mən Vətənəm -
Sərhədimin ucu Təbriz;
Bir ucunda Göyçə gölü,
Bir ucunda Dərbəndim var,
Bir ucunda mavi dəniz...

Mən Vətənəm -
Parça-parça olmağıma baxmayın siz:
Hər parçamda min şəhidim,
Hər parçamda qan izim var -
Neçə-neçə sərkərdələr,
Neçə-neçə xan izim var...

Mən Vətənəm -
Qapınızı döydüyümdə
Düşünmədən açın... Mənəm!
Zəncan, Xoyam, Borçalıyam.
Şuşa mənəm!
Laçın mənəm!
Üfüqlərdə işıq saçan
Türk ulusu Turan mənəm:
Mən Vətənəm,
Vətən mənəm!

### BU GECƏ ŞEİRİMƏ SƏN QATDIM BİR AZ

Bu gəcə şeirimə sən qatdım bir az:
Bir az saçlarının qaralığından;
Bu gecə dünyaya pəncərə açdım
O iki gözünün aralığından...

Bir şeir dəmlədim bu gecə səndən,
Rəng üçün yanağın xalını qatdım;
Düşündüm ən şirin şey nədir deyə -
Busə dodağının balını qatdım...

Bu gecə şeirimə sən qatdım bir az:
Hərflər qoxunun xəstəsi oldu;
Hər dəfə içimə bulaqtək axan
Gülüşün şeirin bəstəsi oldu...

Bu gecə şeirimə sən qatdım bir az:
Bir az kirpiyindən, bir az qaşından;
Baxarkən dünyaya sanki nur saçan -
Bir azda o nazlı baxışlarından...

Bir az yerişini qatdım şeirə:
Sözlərim düzüldü bir inci kimi;
Misralar o qədər həsrətmiş sənə,
Məhbusun azadlıq sevinci kimi...

Bu gecə səninçün elə darıxdım,
Elə bil dünyada hamı səndədir;
Bu gecə şeirimə sən qatdım bir az,
Sən də gəl, hər şeyin tamı səndədir...

### BALACA

Xəyallarım qocalıbdır, balaca,
Ayı qalıb, ulduzları tökülüb.
Arzularım qarış-qarış yeriyir,
Ümüdümün artıq beli bükülüb.
Biz səninlə üzbəüzə dayansaq,
Aramızı bulud alar, çən alar.

Sən özünə qəlbimdə yer tapınca,
Qocalarsan, saçlarını dən alar.

Soyuq-soyuq baxışımda donarsan -
Mən qışıyam, sənsə yayı dünyanın.
Fərqli-fərqli qütblərik sənin ilə -
Mən bu tayı, sən o tayı dünyanın.

Sən cilovun buraxdığın sevginin,
Artıq məndə gözü üstə qaşı var.
Mən sonuyam hekayənin, balaca,
Hələ sənin hekayənin başı var...

## SEVDİM SƏNİ

Mən sevməyi bacarmırdım,
Sən öyrətdin, sevdim səni.
Bir az fərqli, kələ-kötür,
Bir az çətin sevdim səni.

Təsadüfən gördüyüm kəs,
Doldun qəlbə nəfəs-nəfəs.
Sən hər şeydə tələs-tələs,
Mənsə həzin sevdim səni.

Sən sansan da məni nadan,
Heç qaçmadım bu duyğudan.
Yavaş-yavaş, altdan-altdan,
Dərin-dərin sevdim səni.

Bəzən sevdim mələk kimi,
Bəzən arzu, dilək kimi.
Bəzən isti külək kimi,
Bəzən sərin sevdim səni.

Səndə tapdım hər əlacı,
Ödədin hər ehtiyacı.
Hərdən duzlu, hərdən acı,
Hərdən şirin sevdim səni.

Sevgim təkcə gözdə deyil,
Görünüşdə, üzdə deyil.
Dildə deyil, sözdə deyil,
İçin-için sevdim səni...

## İNSAN

Yaşın artmasının bir xeyri yoxdur,
Acılar çəkərək böyüyür insan.
Hər kəs doğularkən doğru, saf olur,
Sonradan içindən çürüyür insan.

Qıraqdan baxarkən xoşbəxt görsənir,
İçdən nə çəkdiyin heç kəs bilməyir.
Bütün arzuları bitir, tükənir,
Sadəcə bədənin sürüyür insan.

Bir üşütmə tutub uzun zaman ki,
Donub, buz bağlayıb ürəyim sanki.
Həkim qan azlığı dedi, amma ki,
Kimsəsiz qalanda üşüyür insan.

Sağ ikən halını soran olmayır,
Uzadıb əlini tutan olmayır.
Niyə belə olur, mənə çatmayır,
Ölərkən ətrafın bürüyür insan...

## SƏNSƏN

Yaşadığım bu dünyanın,
Günəşi, həm ayı, sənsən.
Həsrətindən üşüdüyüm,
Ömrümün tək yayı, sənsən.

Cansız necə yaşar insan?
Sən canımda bir ayrı can.
İlahinin mənə olan
Ən dəyərli payı sənsən.

Sən şeirimin sətirləri,
Sən könlümün tək dilbəri.
Sən ömrümün fəsilləri -
İli, günü, ayı sənsən...

## SƏN MƏNƏ AİDSƏN

Sən mənə aidsən, mənə aidsən,
Sənin tellərinə toxunmasam da;
Sən mənə aidsən qismətin kimi -
Sənin qulağına oxunmasam da.

Sən mənə aidsən, qoymaram səni
Özgələr incidə, özgələr üzə;
Qoymaram gözündə bulud yığıla,
Qoymaram bir damcı göz yaşı süzə.

Sən mənə aidsən, məndən başqası
Sənintək qadını oxuya bilməz;
Uzaqdan-uzağa hər baxışını
Mənimtək ürəyə toxuya bilməz.

Sən mənə aidsən, mənimsən, mənim -
Səni bir özgəyə verə bilmərəm;
Sənsiz yaşamaram demirəm, çünki,
İstəsəm heç, sənsiz ölə bilmərəm...